# Peşə təhsili müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Peşə təhsili müəssisələrində 2023-cü il aprelin 1-dən peşə təhsili pilləsinin bütün səviyyələri üzrə dövlət büdcəsinin vəsaiti hesabına kadr hazırlığı mərhələli şəkildə adambaşına maliyyələşdirmə prinsipi əsasında dövlət sifarişi ilə həyata keçirilsin.

**2.** Adambaşına maliyyələşdirmə prinsipi əsasında kadr hazırlığı həyata keçirilən peşə təhsili müəssisələrində 2023-2026-cı illərdə 12000 (on iki min) təhsilalana münasibətdə ayrı-ayrı ixtisaslar üzrə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına artım əmsalı tətbiq edilsin.

**3.** Müəyyən edilsin ki:
3.1. hər tədris ili üçün ayrı-ayrı ixtisaslar üzrə peşə təhsili pilləsinin bütün səviyyələrinə dövlət sifarişi ölkənin əmək bazarının xüsusiyyətləri və prioritet inkişaf istiqamətləri nəzərə alınmaqla, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılmış təklifləri əsasında müəyyənləşdirilir;
3.2. Azərbaycan Respublikasının Nazirlər Kabineti dövlət sifarişinə uyğun olaraq, hər tədris ili üçün ayrı-ayrı ixtisaslar üzrə peşə təhsili pilləsinin bütün səviyyələrinə tələbə qəbulunu həmin il may ayının 1-dək təsdiq edir.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:
4.1. ayrı-ayrı ixtisaslar üzrə peşə təhsili müəssisələrində dövlət sifarişi ilə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarını, habelə yeni maliyyələşmə mexanizminin tətbiqi ilə bağlı dövlət sifarişi ilə peşə təhsili müəssisələrində kadr hazırlığının maliyyələşdirilməsi və hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına artım əmsalının tətbiq edilməsi qaydalarını bir ay müddətində təsdiq etsin;
4.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**5.** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi hər növbəti təqvim ili üçün dövlət büdcəsinin vəsaiti hesabına adambaşına maliyyələşdirmə prinsipi əsasında dövlət sifarişi ilə kadr hazırlığını həyata keçirəcək peşə təhsili müəssisələrinin siyahısını və təhsilalanlarının sayını, eləcə də hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına artım əmsalı tətbiq ediləcək təhsilalanların sayını Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla müəyyən etsin.

**6.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın icrasından irəli gələn tədbirlərin dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsini təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 17 mart 2023-cü il*

# Tədris mühitindən kənarda təhsil

## Nazir tələbə düşərgələrinin iştirakçıları ilə görüşüb






Elm və təhsil naziri Emin Əmrullayev "EduCamp 2023" və "MathCamp 2023" düşərgələrinin iştirakçıları ilə görüşüb.

Görüşdə nazir bu kimi tədbirlərin tələbələr arasında yeni əməkdaşlıqların qurulması, pedaqoji bilik və təcrübələrin qazanılmasında faydalı olduğunu bildirib. Emin Əmrullayev ənənəvi tədris mühitindən kənarda ortaq istiqamətlərdə təhsil alan tələbələrin birgə təlimlərə cəlb edilməsinin onların ixtisas biliklərinin artırılması ilə yanaşı, ünsiyyət bacarıqlarının inkişafına da töhfə verəcəyini xüsusilə qeyd edib.

Tələbələrə öz tövsiyələrini verən elm və təhsil naziri görüşün sonunda düşərgə iştirakçılarını maraqlandıran sualları cavablandırıb və onlara gələcək fəaliyyətlərində uğurlar arzu edib.

Emin Əmrullayev düşərgələrin təşkil edildiyi tədris mərkəzində riyaziyyat və informatika fənni üzrə beynəlxalq olimpiadalara hazırlaşan şagirdlərlə də görüşüb, onlarla səmimi söhbət aparıb.

## "MathCamp 2023" və "EduCamp 2023" tələbə düşərgələri yekunlaşıb





22-26 mart tarixlərində Quba rayonunda riyaziyyat, fizika və əlaqəli ixtisaslarda təhsil alan tələbələr üçün keçirilən "MathCamp 2023" və Azərbaycan Dövlət Pedaqoji Universitetinin Strateji İnkişaf Mərkəzinin tərəfdaşlığı ilə təhsilin idarə edilməsi və pedaqoji profilli ixtisaslarda təhsil alan tələbələr üçün keçirilən "EduCamp 2023" tələbə düşərgələri yekunlaşıb.

Düşərgələr Elm və Təhsil Nazirliyinin dəstəyi, "Bir Könüllü" Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin təşkilatçılığı ilə baş tutub.

Bağlanış mərasimində iştirak edən Elm və Təhsil Nazirliyinin İnformasiya və vətəndaşlara xidmət şöbəsinin müdir müavini Səbuhi Rzayev tələbələrdə yeniliklərə qarşı yaradıcı təfəkkür və açıq düşüncə tərzini formalaşdırmaq, yeni dostluqlar qazanmaq, eyni zamanda, asudə vaxtı daha səmərəli keçirmək baxımından düşərgə formatında təşkil edilən layihələrin vacibliyini vurğulayıb.

Daha sonra "Bir Könüllü" Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin sədri Leyla Zeynalova gənc tələbələrin innovativ potensialını stimullaşdırmaq, onların elmi və nəzəri biliklərini artırmaq, bu sahədə praktiki biliklərin gücləndirilməsi məqsədilə keçirilən düşərgələrin əhəmiyyətindən bəhs edib.

Beş gün davam edən "EduCamp 2023" və "MathCamp 2023" düşərgələri ərzində müxtəlif mövzularda informativ sessiyalar keçirilib.

Qeyd edək ki, düşərgələr zamanı məşqçi-müəllimlər və idman mütəxəssislərinin dəstəyi ilə bədən tərbiyəsi dərsləri, voleybol turnirləri, futbol və stolüstü tennis yarışları, intellektual oyunlar, musiqi axşamları və Quba rayonunun Çənlibel gölünə ekskursiya təşkil olunub.

# Elm və təhsil nazirinin Göygöldəki vətəndaş qəbulunun vaxtı dəyişdirilib

Elm və təhsil naziri Emin Əmrullayevin 30 mart 2023-cü il tarixində Göygöl rayonunda keçirilməsi nəzərdə tutulan vətəndaş qəbulunun vaxtı dəyişdirilib. Vətəndaş qəbulu martın 31-də keçiriləcək.

Qəbulda Göygöl, Gəncə, Naftalan, Daşkəsən, Goranboy, Samux, Kəlbəcər və Xocalı sakinlərinin iştirakı nəzərdə tutulub.

Qeyd edək ki, müvafiq qaydada müraciət etmiş və adları qəbula yazılanlar siyahısında olan şəxslər qəbulun keçirildiyi otağa şəxsiyyət vəsiqəsi əsasında buraxılacaqlar.

# Aşqarlar Kimyası İnstitutunun alimi Almaniyada elmi konfransda məruzə edib

Almaniyanın Frankfurt şəhərində "7. Uluslararası Avrupa disiplinlerarası bilimsel araştırmalar kongresi" adlı beynəlxalq onlayn elmi konfrans keçirilib.

"Zoom" platforması üzərindən baş tutan konfransda Elm və Təhsil Nazirliyinin Aşqarlar Kimyası İnstitutunun triboloji xassələrə malik üzvi birləşmələr laboratoriyasının mühəndisi Şəfa Kazımzadə "Kükürd və bor saxlayan birləşmələr sürtkü yağlarına sürtünməyə qarşı aşqar kimi" (SULFUR-, BORON-CONTAINING COMPOUNDS AS EP ADDITIVES TO LUBRICANT OILS) mövzusunda ingilis dilində məruzə edib. Məruzəsində transmissiya yağlarının keyfiyyət göstəricilərini yaxşılaşdırmaq üçün əlavə olunan aşqarlardan bəhs edən alim konfrans iştirakçılarının suallarını da cavablandırıb.

# Talış kənd məktəbində ilk dərs

## 24 şagirdin təlim-tərbiyəsi ilə 16 müəllim məşğul olur





Martın 27-də Tərtər rayonunun Talış kənd tam orta məktəbində ilk dərs günü ilə bağlı mərasim keçirilib.

Mərasimdə Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin təmsilçiləri Seymur Məmmədov, Şamxal Muxtarov, Qarabağ Regional Təhsil İdarəsinin müdiri Gündüz Əbdülov, kənd sakinləri iştirak ediblər.

Mərasim iştirakçıları əvvəlcə məktəbdə yaradılmış şəraitlə tanış olublar. Bildirilib ki, məktəb 78 şagird yerlikdir. İkimərtəbəli binanın dam örtüyü tamamilə yenilənib, kommunikasiya sistemləri yenidən qurulub. Bina yanğın əleyhinə siqnalizasiya, rabitə, videomüşahidə sistemləri ilə təchiz edilib. Məktəbdə 8 sinif, tibb və müəllimlər otağı, akt zalı və kitabxana yerləşir. Məktəbin həyətyanı ərazisində süni ot örtüklü futbol və idman meydançaları yaradılıb. Hazırda təhsil müəssisəsində 24 şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə 16 müəllim məşğul olur.

Daha sonra məktəbəqədər təhsil müəssisəsində yaradılmış şəraitlə tanışlıq olub. Məlumat verilib ki, uşaq bağçasının birmərtəbəli binası da əsaslı təmir edilib. Bütün kommunikasiya sistemləri yenidən qurulub və bina yanğın əleyhinə siqnalizasiya, rabitə, videomüşahidə və fövqəladə hal xəbərverici sistemləri ilə təchiz edilib. Həyətyanı ərazidə uşaqlar üçün rezin örtüklü oyun meydançası və iki söhbətgah inşa olunub.

Mərasimdən sonra kənd sakinləri ilə söhbət aparılıb, xatirə şəkli çəkdirilib.

# Rektor Beynəlxalq Universitetlər Assosiasiyasının İdarə Heyətinin iclasında iştirak edib



Mingəçevir Dövlət Universitetinin (MDU) rektoru Şahin Bayramov Fransanın paytaxtı Paris şəhərində Beynəlxalq Universitetlər Assosiasiyasının (International Association of Universities — IAU) İdarə Heyətinin növbəti iclasında iştirak edib.

UNESCO-nun Parisdəki baş qərargahında baş tutan tədbirdə İdarə Heyətinin 2022-ci ilin oktyabrında keçirilmiş əvvəlki iclasından sonrakı dövrdə IAU çərçivəsində reallaşdırılan fəaliyyətlər barədə hesabatlar dinlənilib. Eyni zamanda, iclasda IAU-nun idarəedilməsinin təkmilləşdirilməsi, təşkilata yeni üzv universitetlərin qəbul olunması, IAU Katibliyinin işinin səmərəliliyinin yüksəldilməsi, maliyyə daxilolmalarının artırılması imkanları və digər məsələlər ətraflı müzakirə olunub, müvafiq qərarlar qəbul edilib.

İclasda IAU 2030 Strategiyası əsasında hazırlanmış Fəaliyyət Planı (2023-2026) layihəsi geniş müzakirə olunub. Müvafiq əlavə və düzəlişlərin edilməsi ilə IAU İdarə Heyəti tərəfindən qəbul olunan Fəaliyyət Planı dörd strateji prioritet üzrə müvafiq tədbirlərin reallaşdırılmasını nəzərdə tutub: qlobal əhatəli və dəyər əsaslı liderlik; cəmiyyət üçün beynəlmiləlləşmə və qlobal ortaq məhsul; davamlı inkişaf üçün ali təhsil və tədqiqat; ali təhsilin rəqəmsal transformasiyası. Qeyd olunan strateji prioritetlər üzrə həyata keçiriləcək fəaliyyətlərin əlaqələndirilməsi məqsədilə IAU İdarə Heyəti üzvlərindən ibarət dörd İşçi Qrupu yaradılıb.

Ş.Bayramov UNESCO Baş Katibinin təhsil məsələləri üzrə köməkçisi Stefania Giannini, 17 ölkənin UNESCO yanında nümayəndəliklərinin diplomatları, IAU-nun Prezidenti Andreu Deeks, IAU İdarə Heyətinin üzvləri və IAU Katibliyinin əməkdaşları ilə görüşüb.

Eyni zamanda, Paris şəhərinə səfəri çərçivəsində Ş.Bayramov Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva və Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi, səfir Elman Abdullayevlə də görüşüb.

Məlumat üçün bildirək ki, Ş.Bayramov IAU-nun 2022-ci ilin oktyabrında İrlandiyanın paytaxtı Dublin şəhərində baş tutan 16-cı Baş Konfransı çərçivəsində keçirilmiş seçkilərdə IAU İdarə Heyətinin üzvü seçilib. IAU İdarə Heyəti təşkilatın əsas idarəedici qurumudur və üzvləri dörd il müddətinə seçilir. Hazırda 17 üzvü olan İdarə Heyəti hər il toplanır, Baş Konfransın qərarlarının icrasını təmin və İAU Katibliyinin işinə rəhbərlik edir. İdarə Heyətinin işlərinin bir hissəsi konkret komitələr və işçi qruplar vasitəsilə həyata keçirilir.

Qeyd edək ki, MDU 2022-ci ildən IAU-nun üzvüdür. IAU 1950-ci ildə UNESCO-nun himayəsi altında yaradılmış qlobal miqyaslı üzvlük əsaslı təşkilatdır. Ali təhsil sahəsində dünyanın ən böyük təşkilatı hesab edilən IAU dünyanın 130-dan çox ölkəsinin 600-dən artıq universitetini birləşdirir. IAU dünya ali təhsil ictimaiyyətinin nümayəndələrini, ekspertləri və universitet liderlərini ali təhsil sahəsində qlobal gündəliyə aid əsas məsələlərə həsr olunan beynəlxalq konfranslar və görüşlərdə, tematik ixtisaslaşdırılmış seminarlar və vebinarlarda bir araya gətirən beynəlxalq şəbəkələşmə və əməkdaşlıq platforması kimi çıxış edir.